# AZƏRTAC-ın kollektivi şəhid jurnalist Məhərrəm İbrahimovun xatirəsini ehtiramla anıb






Mətbuat tariximizə əlamətdar günlərlə yanaşı, acı günlər də yazılıb. 2021-ci il iyunun 4-də belə günlərdən biridir.

Kəlbəcər rayonuna ezam olunmuş bir qrup jurnalisti aparan avtomobilin Susuzluq kəndi istiqamətində həmin gün minaya düşməsi nəticəsində AZƏRTAC-ın müxbiri Məhərrəm İbrahimov, Azərbaycan Televiziyasının operatoru Sirac Abışov və Kəlbəcər Rayon İcra Hakimiyyəti başçısının Susuzluq kənd inzibati ərazi dairəsi üzrə nümayəndəsinin müavini Arif Əliyev həlak oldular.

Bu faciəli hadisənin birinci ildönümü ilə əlaqədar AZƏRTAC-da anım mərasimi keçirilib. Mərasimdə şəhid jurnalist Məhərrəm İbrahimovun ailə üzvləri - həyat yoldaşı Bahar xanım, övladları Uğur və Toğrul da iştirak edirdi.

Əvvəlcə Məhərrəmin AZƏRTAC-dakı xatirə guşəsinin önünə gül dəstələri düzülüb, bütün şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Mərasimdə qeyd edilib ki, 44 günlük Vətən müharibəsi dövründə AZƏRTAC-ın kollektivi xüsusilə gücləndirilmiş iş rejimində çalışıb. Agentliyin cəbhə bölgəsinə ezam olunmuş əməkdaşları düşmən atəşi altında gecə-gündüz çəkilişlər aparıblar. Müharibə başa çatdıqdan sonra azad edilmiş torpaqlarda aylarla çalışan çəkiliş qrupunun üzvləri erməni vandalizminin, viran edilmiş yurd yerlərinin görüntülərini lentə alaraq arxivləşdiriblər. Onlardan biri də xidməti vəzifəsini yerinə yetirərkən minaya düşərək şəhid olmuş Məhərrəm İbrahimovdur.

Uzun illər agentlikdə Məhərrəm İbrahimovla birlikdə çalışmış əməkdaşlar çıxış edərək mərhum jurnalistlə bağlı xatirələrini bölüşüb, onun vətənpərvərliyindən və peşəsinə sonsuz bağlılığından söhbət açıblar.

AZƏRTAC-ın rəhbərliyi və kollektivi şəhid jurnalistin xatirəsini əziz tutur, ailə üzvlərinə daim diqqət və qayğı göstərir.

Anım mərasimində Məhərrəmin həyat yolunun və müxbirlik fəaliyyətinin bəzi məqamlarından bəhs edən videoçarx nümayiş olunub.

Kollektivin üzvlərindən bir qrupu şəhid jurnalist Məhərrəm İbrahimovun Müşfiqabad qəsəbə qəbiristanlığındakı məzarını ziyarət edib. İş yoldaşlarının, doğmalarının, dostlarının iştirak etdiyi anım mərasimində Məhərrəmin məzarı önünə AZƏRTAC-ın kollektivi adından əklil qoyulub, gül dəstələri düzülüb.

Şəhidin qardaşı Əsgər İbrahimov, bacısı Sevda İbrahimova Məhərrəmin ömür yolundan danışıb, xatirəsini daim əziz tutduqlarına, ailəsinə göstərilən diqqət və qayğıya görə AZƏRTAC-ın kollektivinə minnətdarlıqlarını bildiriblər.

İdarə Heyəti sədrinin müavini Dağbəyi İsmayılov çıxış edərək deyib ki, Məhərrəm İbrahimov peşəkar jurnalist kimi AZƏRTAC-da formalaşıb, ordu həyatının işıqlandırılmasında yaxından iştirak edib, onun qaynar nöqtələrdən, hadisə yerindən hazırladığı reportajlar oxucular tərəfindən maraqla qarşılanıb.

Məhərrəmin verilən tapşırıqları yüksək səviyyədə yerinə yetirməsindən, həmçinin insani keyfiyyətlərindən danışan D.İsmayılov deyib: "O, 39 yaşında şəhidlik zirvəsinə ucaldı. Hamımız bu dünyadan köçəcəyik, bəlkə də çoxlarımızı xatırlamayacaqlar, ancaq Məhərrəm daim xatırlanacaq. Çünki şəhidlər ölmürlər, onlar qəlblərdə daim yaşayırlar".

Azərbaycan.- 2022.-5 iyun.- S.8.